Quba

# ƏSAS MƏQSƏDİMİZ

*Quba İncəsənət məktəbi 1940-cı ildən fəaliyyət göstərir. Şimal zonasında ilk musiqi məktəbidir. Bu müddət ərzində məktəbimiz zəngin yaradıcılıq yolu keçmişdir. Fəaliyyət göstərdiyi illər ərzində məktəbimizi yüzlərlə gənc bitirmişdir. Pedaqoji kollektivimiz gənc nəslin estetik tərbiyəsinin formalaşması sahəsində əlindən gələni əsirgəmir.*



Məktəbimizdə çalışan müəllimlərin hamısı məktəbin məzunlarıdır. Qocaman müəllimlərimizdən Anatollu Alaşov, Nadir Gərayov, Məzahir Həsənbəyov bu gün də şagirdlərə musiqinin sirlərini öyrədirlər. Məktəbimizdə istedadlı və bacarıqlı müəllimlər çoxdur. Onlardan Sədaqət Babayeva, Fəridə Əhmədova, Gülşən Həsənova, Kəmalə Rüstəmova, Kamran Məhərrəmov, Vahid Baladadaşov, Hökmənsə Ələsgərova, Şəlalə Seyidzadəni göstərmək olar.

Məktəbin məzunlarının sorağı respublikamızın müxtəlif musiqi və mədəniyyət texnikumlarından, Azərbaycan Dövlət Musiqi Akademiyasından, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən gəlir.

Şagirdlərin dünyagörüşünün genişləndirilməsi, musiqi korifeylərinin həyat və yaradıcılıqları ilə yaxından tanış olmaları üçün Ü.Hacıbəyovun, dahi Bülbülün, maestro Niyazinin ev-muzeylərində olmuş, onların yazıb-yaratdıqları alətlərlə, zəngin eksponatlarla tanış olmuşlar. Muzeylərdə olan görüşlər müəllim və şagirdlərin böyük marağına səbəb olmuşdur.

1940-cı ildə məktəb tar, fortepiano, skripka şöbələrilə fəaliyyətə başlamışdır. Bu illər ərzində məktəb bir neçə binada fəaliyyət göstərmişdir.

Hal-hazırda məktəb 1885-ci ildə tikilmiş ikimərtəbəli evdə yerləşir. Məktəb hər il daxili imkanları hesabına cari təmir olunur. Binanın əsaslı təmirə böyük ehtiyacı vardır. Məktəbin 30 sinif otağı, konsert zalı və kitabxanası vardır.

2004/2005-ci tədris ilində məktəbimizdə 435 şagird 10 ixtisas üzrə təhsil alır, 74 müəllim çalışır. Məktəbdə tar, kamança, fortepiano, skripka, kanon, qarmon, klarnet, nağara, xanəndəlik, rəssamlıq şöbələri fəaliyyət göstərir.

Şagirdlərimiz respublikada və rayonda keçirilən baxış-müsabiqələrdə və mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edirlər.

Günay Fərəczadə, Fidan Məmmədova, Rəşad Əhmədxanov, Elvin Rüstəmov 1999-cu ilin mart ayında Sumqayıt şəhərində keçirilmiş Respublika musiqi məktəblərinin baxış-müsabiqəsində, Fikrət Zalov 2002-ci ilin mart ayında keçirilmiş nəfəs və zərb alətləri ifaçılarının V Respublika müsabiqəsində, məktəb xoru 2004-cü ilin mart ayında Respublika musiqi məktəblərinin xor kollektivlərinin baxış-müsabiqəsində, məktəbin nağaraçalanlar ansamblı 2004-cü ilin mart ayında IV uşaq folklor musiqisi Respublika müsabiqəsində iştirak ediblər.

2000-ci ildə məktəbin şagirdi Sadıq Məmmədxanovun çəkdiyi rəsm əsəri İsveç krallığının paytaxtı Stokholm şəhərinə Beynəlxalq uşaq incəsənət muzeyinə sərgiyə, Ceyhun Məmmədov, Adil Novruzov, Sərxan Quşqari, Elnura Mehdiyevanın çəkdiyi rəsm əsərləri 2004-cü ilin fevral ayında Çexiya Respublikasının Lids şəhərində keçirilmiş 32-ci Beynəlxalq uşaq incəsənət sərgisinə, 2004-cü ilin mart ayında Türkiyənin İzmir şəhərində uşaqların rəsm əsərləri və əl işlərindən ibarət Beynəlxalq müsabiqəyə, 2004-cü ilin noyabr ayında keçirilmiş Respublika sərgisinə göndərilmişdir.

Hal-hazırda məktəbin rəssamı şagirdləri 2005-ci ilin iyun ayında Çexiya Respublikasının Lidis şəhərində keçiriləcək 33-cü Beynəlxalq sərgiyə, məktəbin xor kollektivi 2005-ci ilin mart ayında keçiriləcək Respublika musiqi məktəblərinin xor kollektivlərinin baxış-müsabiqəsinə hazırlaşırlar.

Məktəbin kollektivi mədəniyyətimizin inkişafı üçün bundan sonra da öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır.

**Mirkazım Cəfərov,**
***Quba incəsənət məktəbinin direktoru.***